Статистическая обработка по критерию $\chi 2$-Пирсона данных показала, что по длительности заболевания 1-5 лет между пациентками в возрасте 25-30 и 31-35 лет отмечались статистически значимые различия ($\chi 2=3,27$, $p\leq 0,05$). При длительности заболевания 6-10 лет между пациентками в возрасте 31-35 и 45-50, 36-40 и 46-50 лет отмечались статистически значимые различия (соответственно $\chi 2=4,09$, $\chi 2=3,17$, $p\leq 0,05$), между пациентками в возрасте 41-45 и 45-50 лет не отмечались статистические различия ($\chi 2=2,03$, $p\geq 0,05$). При длительности заболевания 11-19 и более 20 лет между пациентками в изучаемых возрастных группах отсутствовали статистические различия ($\chi 2\approx 2,00$, $p\geq 0,05$).

Обсуждение

Возраст > 45 ($\chi 2=5,6$, $p\leq 0,01$) лет является определяющим фактором, повышающим риск

пролапса тазовых органов. Этот вывод исследования согласуется с исследованием, проведенным в [14,15]. Это может быть связано с тем, что риск ПТО увеличивается с возрастом из-за тазовых мышц; связки и различные структуры таза ослабевают с возрастом.

Важным фактором риска является ожирение (ИМТ 25 кг/м2). Которое увеличивает бремя пролапса мочевого пузыря. Между численностью пациенток с недостаточным и избыточным ИМТ в основной и контрольной группах статистически значимые различия не наблюдались (соответственно $\chi2=0,79$, $\chi2=1,47$, $p\geq0,05$), но статистически значимые различия ($\chi2=7,62$, $p\leq0,001$) отмечались между численностью пациенток основной и контрольной групп с нормальным ИМТ. Между численностью пациенток с ожирением I и II степени в основной и контрольной группах наблюдались значимые статистически различия (соответственно $\chi2=4,97$, $p\leq0,01$, $\chi2=2,77$, $p\leq0,05$).

Настоящее исследование показало, что знания о мерах профилактики выпадения матки недостаточны. Анализ жалоб обследуемых также выявил несоответствие между объективными и субъективными данными. Основная масса женщины не рассматривают симптомы выпадения матки и влагалища как патологические симптомы, они считают процесс старения основной причиной появления таких симптомов, поэтому не обращаются к профильным врачам для проведения профилактики или лечения этого состояния. Следовательно, информация является основным показателем знаний женщин о состоянии своего организма.

Таким образом, существует необходимость разработки руководств по пролапсу тазовых органов, направленных на повышение уровня знаний женщин и проведение образовательных программ/медицинских компаний медицинскими работниками в отношении пролапса тазовых органов. Эта образовательная программа должна быть нацелена на женщин во всех местах для раннего выявления, диагностики и лечения этого заболевания. Это побудит женщин с этим заболеванием обращаться за медицинской помощью и поможет улучшить качество их жизни.

XÜLASƏ

Fiziki müayinə olmadan qadınlarda çanaq orqanlarının prolapsının və sidik-cinsiyyət orqanlarının pozulmaların müəyyən edilməsi

N.M. Kamilova, İ.G. Qafarov, R.K. Abbasova
Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan

Açar sözlər: *çanaq orqanının prolapsiyası, risk faktorları, piylənmə, yaş*

Qadın çanaq orqanının prolapsiyası (ÇOP) multifaktorial etiologiyaya malik ümumi bir vəziyyətdir. Bununla belə, yayılmasına və çoxlu sayda tədqiqata baxmayaraq, hələ də proqnozlaşdırıcı tədqiqatların keyfiyyətini qiymətləndirmək üçün ümumi qəbul edilmiş təlimatlar mövcud deyil və çoxşaxəli proqnozlaşdırma modelinin qurulmasına standart yanaşma yoxdur. Tədqiqatın məqsədi reproduktiv yaşda olan qadınlarda genital prolapsın və bununla bağlı sidik qaçırmanın inkişafı üçün əsas risk faktorlarını müəyyən etməkdir. Tədqiqatın materialı və metodları: 2017-ci ilin Dekabrından 2021-ci ilin May ayına kimi tədqiqat Bakı şəhərində yerləşən Azərbaycan Tibb Universitetinin Cərrahiyyə korpusunun

SUMMARY

Identification of pelvic organ prolapse and urogenital disorders in women without physical examination

N.M. Kamilova, I.G. Kafarov, R.K. Abbasova
Azerbaijan Medical University, Baku, Azerbaijan

Key words: *pelvic organ prolapse, risk factors, obesity, age*

Female pelvic organ prolapse (POP) is a common condition with a multifactorial etiology. However, despite its prevalence and large number of studies, there are still no generally accepted guidelines for evaluating the quality of predictive studies and no standard approach to multivariate predictive model construction. The aim of the study is to determine the main risk factors for the development of genital prolapse and related urinary incontinence in women of reproductive age. Research material and methods: from December 2017 to May 2021, the research was conducted at the base of the Surgery Corps of the Azerbaijan Medical University located in Baku. Patients were divided into two groups: At I - main

bazasında aparılmışdır. Xəstələr iki qrupa bölündü: I - əsas qrup uşaqlıq divarın ön divarın prolapsı və sidik qaçırma problemi olan 25-50 yaş arası 50 qadının prospektiv analizi. II - nəzarət qrupu: genital prolaps və sidik qaçırma problemi olmayan, 3 və ya daha çox doğum tarixi olan praktiki olaraq sağlam qadınlar (35 qadın). Kliniki üsula xəstə şikayətlərinin öyrənilməsi, ümumi və ginekoloji müayinə, həmçinin anamnezin öyrənilməsi daxildir. Qruplar qeyri-parametrik Mann-Whitney (U) metodu, χ2-Pirson korrelyasiya analizi və Styudent (t) tərəfindən təklif olunan metoddan istifadə etməklə müqayisə edilmişdir. Alınmış məlumatların statistik emalı SPSS-24 proqramından istifadə etməklə həyata keçirilmişdir. Materialımızda pelvik orqan prolapsının inkişafı üçün ən vacib və təyinedici risk faktorları yaş, bədən kütləsi indeksidir.

group with prospective analysis of 50 women aged 25-50 with prolapse of the anterior vaginal wall and urinary incontinence. In II - control group included practically healthy women (35 women) with 3 or more births without problems with genital prolapse and urinary incontinence. The clinical method includes the study of patient complaints, general and gynecological examination, as well as the study of anamnesis. Groups were compared using the nonparametric Mann-Whitney (U) method, χ2-Pearson correlation analysis, and Student's (t) test. Statistical processing of the received data was carried out using the SPSS-24 program. In our material, the most important and determining risk factors for the development of pelvic organ prolapse are age, body mass index.

ЛИТЕРАТУРА

1. A.A. Dieter, M.F. Wilkins, J.M. Wu/Epidemiological trends and future care needs for pelvic floor disorders // Curr Opin Obstet Gynecol, 27 (2015), pp. 380-384.
2. Rubod C, Lecomte-Grosbras P, Brieu M, Giraudet G, Betrouni N, Cosson M./ 3D simulation of pelvic system numerical simulation for a better understanding of the contribution of the uterine ligaments. //Int Urogynecol J. 2013 Aug 20.
3. T.F. Vergeldt, M. Weemhoff, J. IntHout, K.B. Kluivers /Risk factors for pelvic organ prolapse and its recurrence: a systematic review //Int Urogynecol J, 26 (2015), pp. 1559-1573.
4. L. Cattani, J. Decoene, A.S. Page, N. Weeg, J. Deprest, H.P. Dietz /Pregnancy, labour and delivery as risk factors for pelvic organ prolapse: a systematic review // Int Urogynecol J, 32 (2021), pp. 1623-1631.
5. T. Friedman, G.D. Eslick, H.P. Dietz/ Risk factors for prolapse recurrence: systematic review and meta-analysis// Int Urogynecol J, 29 (2018), pp. 13-21.
6. Altman D.G./ Systematic reviews of evaluations of prognostic variables. // *BMJ.* 2001;323(7306):224-228. doi: 10.1136/bmj.323.7306.224.
7. Iglesia C.B., Smithling K.R. /Pelvic Organ Prolapse. // Am Fam Physician. 2017 Aug 01;96(3):179-185.
8. Schaffer J.I., Wai C.Y., Boreham M.K. Etiology of pelvic organ prolapse. Clin Obstet Gynecol. 2005 Sep;48(3):639-47.
9. Chung S.H., Kim W.B. /Various Approaches and Treatments for Pelvic Organ Prolapse in Women. // J Menopausal Med. 2018 Dec;24(3):155-162. doi: 10.6118/jmm.2018.24.3.155. Epub 2018 Dec 31. PMID: 30671407; PMCID: PMC6336571.
10. Chow D., Rodríguez L.V./ Epidemiology and prevalence of pelvic organ prolapse. //Curr Opin Urol. 2013 Jul;23(4):293-8.
11. Pelvic Organ Prolapse ACOG Practice Bulletin, Number 214//*Obstetrics & Gynecology* 134(5):p e126-e142, November 2019. | *DOI:* 10.1097/AOG.0000000000003519
12. Karjalainen P.K., Mattsson N.K., Nieminen K., Tolppanen A.M., Jalkanen J.T. /The relationship of defecation symptoms and posterior vaginal wall prolapse in women undergoing pelvic organ prolapse surgery. // Am J Obstet Gynecol. 2019 Nov;221(5):480.e1-480.e10.
13. Doshani A, Teo RE, Mayne CJ, Tincello DG. // Uterine prolapse. /BMJ. 2007 Oct 20;335(7624):819-23.
14. Wu J.M., Hundley A.F., Fulton R.G., Myers E.R. /Forecasting the prevalence of pelvic floor disorders in U.S. Women: 2010 to 2050. // Obstet Gynecol. 2009 Dec;114(6):1278-1283.
15. Hammad F.T., Elbiss H.M., Osman N./ The degree of bother and healthcare seeking behaviour in women with symptoms of pelvic organ prolapse from a developing gulf country. // BMC Womens Health. 2018 May 30;18(1):77.

İNSAN PAPİLLOMAVİRUSU MÜSBƏT OLAN QADINLARIN REPRODUKTİV SAĞLAMLIĞININ VƏZİYYƏTİ

C.F. Qurbanova, S.F. Əli-zadə, N.B. Məcidova
Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Azərbaycan, Bakı

Açar sözlər: *insan papillomavirus, uşaqlıq boynu xərçəngi, genital İPV infeksiyası*

İnsan papillomavirusu (İPV) cinsi yolla ötürülən ən ciddi viruslardan biridir. İPV virusu uşaqlıq boynu xərçənginin yaranma səbəblərindən biridir. İnsan papillomavirusun 100-dən çox ştamı müəyyən edilmişdi, lakin 16 və 18-ci növlər uşaqlıq boynu xərçənginin inkişafında virusun ən vacib ştamlar sayılır [1 - 12]. Uşaqlıq boynu xərçəngi qadınlar arasında ən çox rast gələn tezliyə malik olan ciddi onkoloji xəstəliklərdən biridir. Qeyd etmək lazımdır ki hər il 500000 İPV müsbət olan yeni hallar qeydə alınır [5-7, 10]. Müxtəlif ölkələrdə, İPV infeksiyasının yayılmasının araşdırılması üçün müxtəlif və geniş bir şəkildə elmi tədqiqatlar aparılmışdır ki, bu da onun dünyada yayılmasının artdığını göstərir [1, 2, 11]. Statistik məlumatlara nəzər salsaq, dünyada bu virusun yayılması 10,5-55,4% təşkil edir [2, 4-7, 12]. ABŞ-da 18-59 yaş arası qadınlar arasında genital İPV infeksiyasının yayılması İPV-nin bütün növləri üçün 40% və yüksək riskli İPV-lər üçün 20% təşkil edir [5 - 8]. Bəllidir ki, bu növ xərçəngin klinik gedişi çox şaxəli səbəblərin təsirindən irəli gəlir. Məsələn: qadının ümumi sağlamlığının vəziyyəti (somatik status, ginekoloji, ekstragenital xəstəliklər), cərrahi müdaxilələrin tezliyi, cinsi həyatın erkən başlaması, immun sisteminin vəziyyəti, onkoginekoloji xəstəliklərə irsi və genetik meyl, tez-tez tibbi abortlar, kontraseptivlərin, dərmanların uzun müddət istifadəsi, ekoloji amillər və s. aiddir [1]. Ən mühüm və ciddi səbəb İPV-nin yüksək riskli növləri ilə yoluxmasıdır [1, 2, 9, 12].

Yuxarıda qeyd olunanlarla birlikdə reproduktiv yaşda olan qadınlarda həm xoşxassəli, həm də bədxassəli (CIN I, II, III və s.) müəyyən ginekoloji xəstəliklərin inkişafına səbəb olur və bu, çox vaxt reproduktiv funksiyanın pozulmasına ilə nəticələnir. Qeyd etmək lazımdır ki, qadın reproduktiv orqanlarının bədxassəli xəstəlikləri arasında uşaqlıq boynu xərçəngi I-ci, uşaqlıq cismi xərçəngi II-ci yeri tutur [2, 5-7, 12].

Ümumiyyətlə, uşaqlıq boynu xərçəngi erkən mərhələdə aşkar edilərsə və müasir qənaətbəxş edici müalicə olunarsa [3], nəinki tamamilə qarşısını almaq olar, hətta tam şəkildə müalicə edilə bilər.

Bu xəstəlik insanın reproduktiv sağlamlığına ciddi təsir göstərir və fərlərin həyat keyfiyyətinə təsir edir. Bunları nəzərə alaraq, ***məqsəd*** baxımından, qarşımıza insan papillomavirusu müsbət olan qadınların reproduktiv sağlamlığının vəziyyətinin öyrənilməsi zəruri hesab edilmişdi, aktual və vacib, ciddi məsələ kimi qiymətləndirilmişdir.


Tədqiqatın materialları və metodları: Tədqiqatda Bakı şəhəri Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun ambulator xidmətinə müraciət etmiş n=150 müxtəlif yaşda olan qadın cəlb edilmişdi.

Əsas qrup fon prosesləri və patoloji dəyişiklikləri olan 130 qadından ibarət olmuşdu. Nəzarət qrupuna (NQ) 20 şərti sağlam qadın daxil edilmişdi. Əsas qrup 3 yarımqrupa bölüşmüşdür: I yarımqrupu - reproduktiv yaş dövründə olan – 50 xəstə, II yarımqrupu - premenopauza yaş dövründə olan – 39 xəstə, III yarımqrupu postmenopauza dövründə olan – 41 qadın. Tədqiqata daxil olan qadınların yaşı 18 yaşdan 73 yaşa gədər olub. Qadınların (n=130) klinik və laborator müayinəsinə aşağıdakı üsullar tətbiq edilmişdi: uşaqlıq boynu kanalı və uşaqlıq yolunun klinik, laborator, bakterioloji və mikroskopik tədqiqatları, histoloji tədqiqatlar; instrumental və xüsusi üsullar (klassik ənənəvi *PAP-klassik* və maye *PAP-smear* sitologiya). Sitoloji müayinə ənənəvi klassik üsula və maye sitologiyaya (*PAP test*) uyğun olaraq aparılmışdır. Yaxma Papanicolaou, bəziləri klassik üsulla boyanmışdır. Uşaqlıq boynunun sitoloji müayinəsinin nəticələrini şərh etmək üçün biz Bethesda sistemindən istifadə etdik (2014-cü ildə yenilənmış variantı). Klinik tədqiqatlara aşağıdakılar daxil edilmişdi: qadınların mamalıq və ginekoloji anamnezin xüsusiyyətlərinin toplanması və öyrənilməsi, standart ginekoloji müayinə və rekro-vaqinal müayinə; funksional sistemlərə görə sağlamlıq vəziyyətinin qiymətləndirilməsi aparılmışdı. İnsan

papillomavirus infeksiyasının DNT-sini müəyyən etmək üçün aparılan PCR metodundan istifadə edilmişdi. Bu üsulla HPV 16; 18 genotipləri müəyyən edilmişdi. Tədqiqat üçün material uşaqlıq boynundan sidik-cinsiyyət DNT-si müəyyən edilmişdi. İnstrumental müayinələrə daxildir: çanaq orqanlarının ultrasəs müayinəsi (*"LOGIK 500GE"* və *"MEDISONSA-8000"* aparatı), kolposkopiya (sadə və geniş). Maye sitologiyası üçün "CellScan 100A" aparatından istifadə olunmuşdu. Müalicə üçün "FOTEK EA 141M" aparatından (*FOTEK MMC, Rusiya istehsalı*) istifadə edərək genişzolaqlı dalğa cərrahiyyəsi və arqon plazma koaqulyasiyasının (APC) innovativ texnologiyasını tətbiq edilmişdi. "FOTEK EA 141M" aparatı ilə histoloji müayinə üçün biopsiya da aparılıb. Statistik təhlil dispersiya (ANONVA testi) kəmiyyət göstəriciləri, diskriminant (Chissquare Rearson) keyfiyyət analizi və qruplar və alt qruplar arasında hesablanmış fərqlərin qeyri-parametrik U (Mann-Whitney) və H (Kruskal-Wallis) statistik əhəmiyyətinin izləndiyi aparılmışdı. Alınmış nəticələrin statistik emalı "IBM Statistics SPSS-26" versiyasından istifadə etməklə həyata keçirilmişdi. Məlumatlar arasındakı fərqlər biotibbi tədqiqatın tələblərinə cavab verən p <0,05-də əhəmiyyətli hesab edilmişdi.


Nəticələr və müzakirələr: Kompleks şəkildə n=130 qadında aparılan klinik və laborator müayinələr nəticəsində xoşxassəli xəstəliklərin aşağıdakı nozoloji formaları aşkar edilmişdi: qeyri-spesifik vaginit - 8(6,2%) halda; ektopiya, endoservisit - 23(17,7%); ektropion - 7(5,4%); servikal polip - 9(6,9%); leykoplakiya - 15(11,5%); atrofik vaginit - 7(5,4%); kondiloma - 12(9,2%); uşaqlıq boynunun eroziyası - 37(28,5%); servikal stenoz - 2(1,5%); uşaqlıq boynunun endometriozu - müvafiq olaraq 10(7,7%) hallarda (p<0,001) (şək. 1).

Menstrual funksiyanın müqayisəli analizi I, II və III yarımqrupun pasientləri arasında menarxe yaşının (müvafiq olaraq 12,1±0,2, 12,4±0,2 və 11,9±0,3 yaş) olduğunu göstərmişdir. NQ-da bu göstərici 12,6+0,3 yaş olmuşdur. Beləki, reproduktiv qrupda olan qadınların 74% aybaşı xarakteri normal olmuş, 18% oliqomenoreya, 4% polimenoreya, 4% alqomenoreya rast gəlmişdir.



Şəkil 1. *Müayinə olunan qadınlarda xoşxassəli xəstəliklərin rast gəlmə tezliyinin diaqramı*

Premenopauza qrupuna aid olan qadınların 53,8% aybaşı xarakteri normal olmuş, 30,8% oliqomenoreya, 5,1% polimenoreya, 10,3% alqomenoreya rast gəlmişdir. Menopauza qrupuna aid olan qadınların 95,1% aybaşı xarakteri normal olmuş, 4,9% oliqomenoreyadan əziyyət çəkmişdir (şək.2).




Şəkil 2. *Müayinə olunan qadınlarda menstrual siklin xarakteristikası*

NQ-da olan qadınların isə 70% aybaşı xarakteri normal olmuş, 15% oliqomenoreya, 15% alqomenoreya rast gəlmişdir (pU<0,001) (pн< 0,001).

Toplanan anamnez zamanı məlum olmuşdur ki, reproduktiv qrupa daxil olan 43(86%), premenopauza qrupunda olan 37(94,9%), menopauza qrupunda 39(95,1%) qadında hamilələlik (pн=0,202) və doğuş olmuşdur (pн=0,028). Həmçinin reproduktiv yaş qrupunda olan 23(46%), premenopauza yaş qrupuna daxil olan 31(79,5%), menopauza qrupuna daxil olan 32(78%) qadında abort olmuşdur (pн=0,001). Doğuşdan sonrakı fəsadlardan isə yumşaq doğuş yollarının xüsusilə uşaqlıq boynunun cırığı I qrupda 32% qadında, II qrup üzrə 12,8% qadında, III qrupda 14,6 % qadında rast gəlmişdir (pн=0,045).


Reproduktiv anamnezin məlumatlarına əsasən, əsas qrupun cinsi həyata başlama yaşı üzrə orta göstəricisi 21,7±0,3 yaşa bərabər olmuşdur (pн=0,078). I yarımqrupda 70%, II yarımqrupda 69,2 %, III yarımqrupda 95,1% qadın heç bir ailə planlaması üsulundan istifadə etməmişdir (pн= 0,005).

Uşaqlıq boynu xəstəliklərinin inkişafı üçün risk faktorlarının təhlili, bu xəstəliklərin yaranmasında insan papillomavirusdan əlavə hamilələlik sayının, abort sayının, doğuş sayının, doğuş zamanı uşaqlıq boynundakı travmaların, erkən cinsi əlaqənin və kontrasepsiya üsulları kimi amillərin əhəmiyyətli rolu olduğunu göstərdi (şək. 3).



Şəkil 3. *Tədqiq edilən qadınların ailə planlaması üsulları üzrə bölgüsünün diaqramı*

Keçirilmiş cərrahi müdaxilələrdən əsas qrupa daxil olan pasientlərdə ümumi olaraq 21(16,2%) əməliyyat keçirilmişdi (şək. 4). Uşaqlıq boynu polipektomiya 4(3,1%) ön və arxa kolporrafiya 6(4,6%), uşaqlığın amputasiyası 3(2,3%), yumurtalıq kistektomiyası 3(2,3%), tubektomiya 2(1,7%), histeroskopiya 1(0,8%), ovariektomiya 1(0,8%), uşaqlıq boynu ekzisiyası 1(0,8%) icra edilmişdi (pн = 0,016).



Şəkil 4. *Tədqiqata daxil edilən qadınlarda cərrahi müdaxilərin tezliyinin diaqramı*

İPV hazırda geniş yayılmış virus olub epidemioloji müayinələrdə (16, 18, 31, 33, 35, 39, 45, 51, 52, 56, 58, 59, 68, 73, 82) tipləri yüksək risk qrupunda, 12 tipi isə (6, 11, 40, 42, 43, 44, 54, 61, 70, 72, 81 ve 89) aşağı risk qrupunda yer alır (cədvəl 1). Götürülmüş analizlərin nəticələri göstərmişdir reproduktiv yaş qrupunda olan qadınlardan 36(72%), premenopauza yaş qrupunda olan qadınların 15(38,5%), menopauza yaş qrupunda olan qadınların 5(12,2%) yüksək risk İPV tipi müsbət olmuşdur. NQ isə 6(30%) müsbət çıxmışdır (şək. 5).


Uşaqlıq boynunun neoplastik proseslərindən asılı olaraq insan papillomavirusunun (İPV) "aşağı" və "yüksək" onkogen riskinin rast gəlmə nisbətini müəyyən etdik (şək. 5). Belə ki, İPV-nin "aşağı" onkogen riski olan qadınların reproduktiv qrupda CIN I - 10(90,9%) halda, menopauzada olan qadınlarda müvafiq olaraq 4(57,1%), premenopauzada olan qadınlarda isə bu göstərici 4(40%) halda qeydə alınıb.

Cədvəl 1.

İPV-nin tipospesifik İPV DNT identifikasiya ardıcıllığı aşkarlanma yarımqruplar üzrə təhlili

IPV DNT	**I qrup n=130**					
	reproduktiv n=50		**premenopauza n=39**		**menopauza n=41**	
	mütləq	%	**mütləq**	%	**mütləq**	%
Yox	3	**6%**	14	**35,9%**	29	**70,7%**
11	2	**4%**	2	**5,1%**	4	**9,8%**
16	5	**10%**	3	**7,7%**	1	**2,4%**
16, 45	1	**2%**	-	**-**	-	**-**
18	1	**2%**	1	**2,6%**	-	**-**
31	7	**14%**	2	**5,1%**	1	**2,4%**
31, 58	1	**2%**	-	**-**	-	**-**
33	2	**4%**	1	**2,6%**	-	**-**
35	-	**-**	-	**-**	1	**2,4%**
39	5	**10%**	2	**5,1%**	-	**-**
45	2	**4%**	1	**2,6%**	1	**2,4%**
45, 58	-	**-**	1	**2,6%**	-	**-**
51	1	**2%**	-	**-**	-	**-**
52	2	**4%**	1	**2,6%**	-	**-**
58	4	**8%**	2	**5,1%**	1	**2,4%**
59	3	**6%**	-	**-**	-	**-**
6	9	**18%**	7	**17,9%**	3	**7,3%**
6,11	-	**-**	1	**2,6%**	-	**-**
6,16	-	**-**	1	**2,6%**	-	**-**
6,16,31	1	**2%**	-	**-**	-	**-**
6,35	1	**2%**	-	**-**	-	**-**
6,52	1	**2%**	-	**-**	-	**-**

Reproduktiv qrupda İPV-nin "yüksək" onkogen riski olan qadınlarda - CIN I əhəmiyyətli dərəcədə daha çox aşkar edilmişdi - 27(75%) halda, II qrupda - 13(86,7%), III-cü qrupda isə qadının 2-sində 40% qeydə alınıb. I-ci və III-cü yarımqruplarda İPV-nin "aşağı" onkogen riski olan qadınlarda - CIN II eyni tezlikdə - 1(9,1%) qadında və 14,3% müvafiq olaraq, 2-ci yarımqrupda - 2(20%) hallarda aşkar edilmişdi. "Yüksək" İPV tipi reproduktiv qadınların 6-da - 16,7%, premenopauzada olan qadınların 2(13,3%), menopauzada isə 2(40%) halda CIN II aşkar edilmişdi (şək. 5).



Şəkil 5. *Müxtəlif yaşlı qadınlarda insan papillomavirusunun (İPV) rast gəlmə tezliyinin diaqramı*

Qeyd etmək lazımdır ki, İPV onkogen riski "aşağı" və "yüksək" olan I və II yarımqrup qadınların heç birində CIN III aşkar edilməmişdir. Yalnız İPV-nin yüksək onkogen riski olan III yarımqrupda 1(20%) halda CIN III aşkar edilmişdir. İPV-nin aşağı onkogen riski olan III yarımqrup olan qadınlarda CIN III aşkar edilmədi (pH< 0,001). Displaziya və maliqlanizasiya rast gəlməyən qadınların sayı reproduktiv yaşda 7(14%), premenopauzada 10(25,6%), menopauzada 17(41,5%) olmuşdur.

Nəticə: İnsan papillomavirus (İPV) müsbət olan qadınlarda, uşaqlıq boynunun xoşxassəli xəstəlikləri onların reproduktiv sağlamlığına ciddi təsir edərkən, xərçəng öncəsi vəziyyətlərin inkişafına səbəb olur və onların həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Beləliklə, aparılan tədqiqat nəticəsində qeyd etmək vacibdir ki, reproduktiv yaşa malik olan qadınlarda İPV infeksiyası aktual tibbi-sosial problemi kimi qiymətləndirmək olar və sadə, müasir, profilaktik müalicəyə zərurət yaradır.

РЕЗЮМЕ

Состояние репродуктивного здоровья папилломавирусо-позитивных женщин

Дж.Ф. Курбанова, С.Ф. Али-заде, Н.Б. Меджидова
Научно-исследовательский институт акушерства и гинекологии, Азербайджан, Баку

Ключевые слова: *папилломавирус, рак шейки матки, генитальная ВПЧ-инфекция*

Данное исследование посвящено изучению состояния репродуктивного здоровья женщин, инфицированных вирусом папилломы человека (HPV). Показана частота встречаемости доброкачественных заболеваний шейки матки среди данных женщин, проанализированы факторы риска.

В комплексное клинико-лабораторное исследование было вовлечено 130 женщин, у которых были выявлены следующие нозологические формы доброкачественных заболеваний шейки матки: неспецифический вагинит - в 6,2% случаев; эктопия, эндоцервицит - 17,7%; эктропион - 5,4%; полип шейки матки - 6,9%; лейкоплакия - 11,5%; атрофический вагинит - 5,4%; кондиломы - 9,2%; эрозия шейки матки - 28,5%; цервикальный стеноз - 1,5%; эндометриоз шейки матки – соответственно в 7,7% случаев.

Дана характеристика менструального цикла у женщин с доброкачественными заболеваниями шейки матки. Проведен анализ частоты оперативных вмешательств у данного контингента женщин. Показана типоспецифичная идентификационная последовательность ДНК HPV и частота HPV у женщин разного возраста. В результате исследования, CIN I зарегистрирована у 90,9% женщин репродуктивной группы с HPV "низкого" онкогенного риска, у 57,1% женщин в менопаузе и у 40% женщин в пременопаузе. CIN II был выявлен у 16,7% женщин репродуктивного возраста с "высоким" риском HPV, у 13,3% - в пременопаузе и у 40% женщин в менопаузе.

Таким образом, сочетание папиломавирусной инфекции с доброкачественными заболеваниями шейки матки серьезно влияет на репродуктивное здоровье, приводя к развитию предраковых состояний и существенно влияет на качество жизни. В результате проведенного исследования важно отметить, что ЧПВ-инфекция у женщин репродуктивного возраста является актуальной медико-социальной проблемой, требуя простого, современного, профилактического лечения.

SUMMARY

Reproductive health of papillomavirus-positive women

J.F. Gurbanova, S.F. Ali-zade, N.B. Mejidova
Research Institute of Obstetrics and Gynecology, Azerbaijan, Baku

Key words: *human papillomavirus, cervical cancer, genital HPV infection*

This study is devoted to the study of the reproductive health of women infected with the human papillomavirus (HPV). The frequency of occurrence of benign diseases of the cervix among these women is shown, and risk factors are analyzed.

A comprehensive clinical and laboratory study involved 130 women who had the following nosological forms of benign diseases of the cervix: nonspecific vaginitis - in 6.2% of cases; ectopia, endocervicitis - 17.7%; ectropion - 5.4%; cervical polyp - 6.9%; leukoplakia - 11.5%; atrophic vaginitis - 5.4%; warts - 9.2%; erosion of the cervix - 28.5%; cervical stenosis - 1.5%; endometriosis of the cervix - respectively in 7.7% of cases.

The characteristic of the menstrual cycle in women with benign diseases of the cervix is given. The frequency of surgical interventions in this contingent of women was analyzed. Type-specific HPV DNA identification sequence and frequency of HPV in women of different ages are shown. As a result of the study, CIN I was registered in 90.9% of women of the reproductive group with HPV "low" oncogenic risk, in 57.1% of menopausal women and in 40% of premenopausal women. CIN II was detected in 16.7% of women of reproductive age at "high" risk of HPV, in 13.3% of premenopausal women and in 40% of menopausal women.

Thus, in papillomavirus-positive women with benign diseases of the cervix, they seriously affect reproductive health, leading to the development of precancerous conditions and significantly affect their quality of life. As a result of the study, it is important to note that HPV infection in women of reproductive age is an urgent medical and social problem, requiring simple, modern, preventive treatment.

ƏDƏBİYYAT

1. Блесманович, А.Е. Факторы риска и превентивная диагностика рака шейки матки / А.Е. Блесманович, Ю.А. Петров, А.Г. Алехина // Здо-ровье женщины, - 2019, №1. - с.25-30.
2. Berek J.S. Berek & Novak's Gynecology Essentials: Lippincott Williams & Wilkins; / Book. 2020. https://www.amazon.com/Berek-Novaks-Gynecology/dp/1496380339
3. Butler S., Wilkinson Y. Understanding HPV and cervical screening. // J. Practice Nursing. 2022; vol. 33(1), p.14- 17. https://doi.org/10.12968/pnur.2022.33.1.14
4. Escobar N., Plugge E. Prevalence of human papillomavirus infection, cervical intraepithelial neoplasia and cervical cancer in imprisoned women worldwide: a systematic review and meta-analysis. //J. Epidemiol. Community Health. 2020; vol. 74(1), p.95-102. https://doi.org/10.1136/jech-2019-212557 PMID: 31649041
5. Global Picture. // J. Oral. Pathol. Med. 2021; vol. 50(9), p. 843-854. https://doi.org/10.1111/jop.13201 PMID: 34008187.
6. Global Cancer Observatory. Cancer tomorrow: a tool that predicts the future cancer incidence and mortality burden worldwide from the current estimates in 2018 up until 2040. International Agency for Research on Cancer, World Health Organization; 2018 (http://gco.iarc.fr/tomorrow, accessed 2 October 2020.
7. Global strategy to accelerate the elimination of cervical cancer as a public health problem. World Health Organization 2020, 56p.
8. McQuillan G, Kruszon-Moran D, Markowitz LE, Unger ER, Paulose-Ram R. Prevalence of HPV in Adults Aged 18-69: United States, 2011- 2014. NCHS Data Brief. 2017 Apr; vol. (280), p.1- 8. PMID: 28463105.
9. Nassar A.C.F., de Oliveira Garcia D., Salvio J.R.C. et al. HPV infection as a risk factor of esophagus squamous cell carcinoma and it prognosis. // Rev. Med. (São Paulo). 2021; vol. 100(2), p.144-151. https://doi.org/10.11606/issn.1679-9836.v100i2p144-151
10. Sethi S., Ali A., Ju X., Antonsson A. et al. A systematic review and meta-analysis of the prevalence of human papillomavirus infection in Indigenous populations – A.
11. Wu J., Ding C., Liu X. et al. Worldwide burden of genital human papillomavirus infection in female sex workers: a systematic review and meta-analysis. // Int. J. Epidemiol. 2021; vol. 50(2), p. 527-537. https://doi.org/10.1093/ije/dyaa289 PMID: 33517415.
12. Wu Z. The association between human papillomavirus 16, 18 DNA load and E6 protein expression in cervical intraepithelial neoplasia and cancer / Wu Z., Yu L., Lei X., Y. Qin [et al.] // Journal of Clinical Virology, 2018, vol,108, p. 6-11.

QADINLARDA OPPORTUNİSTİK İNFEKSİYALARININ YAYILMASI, ONLARIN HAMİLƏLİK PATOLOGİYALARINDA ROLU

M.X. Musayeva
Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Azərbaycan, Bakı

Açar sözlər: *opportunistik infeksiyalar, hamilə qadınlar, hamiləlik patologiyaları*

Hamiləlik patologiyalarında rolu olan xəstəliklər içərisində opportunistik infeksiyaların (Oİ) xüsusi yeri vardır. Opportunistik infeksiyalar törədicilərin nisbətən zəif patogenliyi ilə seçilir. İnfeksiya prosesin baş verməsi əsasən yoluxduğu orqanizmin immun sisteminin vəziyyətindən asılı olur.

Oİ içərisində nisbətən çox yayılmasına, mamaginekologiya və perinatologiyada törətdikləri patologiyalara görə sitomegalovirus, genital herpes, toksoplazmoz, urogenital xlamidioz, ureaplazmoz mühüm rola malikdir. Bu infeksiyaların hər biri ayrı-ayrılıqda hərtərəfli öyrənilsə də, qarışıq infeksiyalarının rastgəlmə tezliyi, organizmdə törətdiyi patologiyalar, onların klinik gedişi, diaqnostikası və müalicəsi müxtəlif regionlarda və ölkələrdə, xüsusən də qadınlar arasında nisbətən az öyrənildiyi üçün bu məsələlərin daha dolğun araşdırılmasına ehtiyac vardır [1-8].

Digər tərəfdən göstərdiyimiz opportunistik infeksiyalar ümumi xüsusiyyətləri ilə yanaşı çox fərqli cəhətlərə malikdir.

Toksoplazmozda xəstəlik mənbəyi pişiklərdir. İnsanlar aralıq sahibdirlər, əsasən ağız vasitəsilə yoluxur və çox böyük epidemioloji əhəmiyyət kəsb etmirlər.Yalnız hamiləlik zamanı cift vasitəsilə keçirlər [2,6].

Urogenital xlamidioz, ureaplazmoz, genital herpes və sitomegalovirusda infeksiya mənbəyi yalnız insanlardır. Bu xəstəliklərdən urogenital xlamidioza, ureaplazmoza, genital herpesə əsasən cinsi, sitomegalovirusa isə cinsi, alimentar və digər yollarla yoluxmaq olar [1,5,7,10,11].

Sitomegalovirus dölə qan vasitəsilə əsasən ciftdən, urogenital xlamidioz, ureaplazmoz və genital herpes isə yenidoğulmuşlara doğuş zamanı doğuş yollarında keçdiyi halda ötürülür.

Opportunist infeksiyaların orqanizmdə törətdiyi patologiyalar da bir-birindən fərqlənir. Urogenital xlamidioz və ureaplazmoz qadın cinsiyyət orqalarının iltihabına (salpingit, piosalpingit, hidrosalpingit və s.), bəzən boru keçməməzliyi və doğuşdan sonrakı endometritə səbəb olurlar [1,4,7,8].

Genital herpes də qadın cinsiyyət orqanlarının əsasən yerli patologiyalarına səbəb olur. Sitomegalovirus və toksoplazmoz isə yerli prosesdən çox müxtəlif üzv və toxumaların zədələnməsinə səbəb olurlar. Dölun sitomegalovirus, toksoplazmoz və herpeslə yoluxması hamiləliyin ilkin vaxtlarında nisbətən az, hamiləliyin son dövründə isə çox təsadüf edilir. Hamiləliyin ilkin vaxtlarında döl yoluxarsa çox vaxt tələf olur, bəzən düşüklər baş verir ya da dölün inkişaf anomaliyaları da müşahidə olunur [2,9-11].

Qadın orqanizmində müxtəlif fizioloji vəziyyətlərində (aybaşı zamanı, ovulyasiya, hamiləlik və s.) orqanizmin immun sisteminin spesifik və qeyri-spesifik müdafiə faktorlarının fəaliyyəti zəifləyir ki, bu da orqanizmdə təbii immunosupressiv vəziyyət yaradır. Bu zaman orqanizmin infeksiyalara tutulması ehtimalı artır. Opportunistik infeksiyalarda latent formada keçən infeksion proses aktivləşir və mikrobdaşıyıcılıq xəstələnmə ilə nəticələnir [1-3,7,12].

Ona görə də, opportunistik infeksiyaların yetkinlik dövrünə çatmış qız uşaqlarında, reproduktiv yaşda və hamilə qadınlarda öyrənilməsinin çox böyük praktik əhəmiyyəti vardır. Bu infeksiyaların vaxtında aşkar edilməsi, onların qadın orqanizmində, dölün inkişafında, yenidoğulmuş körpələrdə və uşaqlarda yaradaca biləcəyi fəsadların və patologiyaların qarşısının alınmasına imkan verir.

Opportunistik infeksiyaların, xüsusən qarışıq formalarının, ayrı-ayrı yaş qrupları, peşə sahibləri və s. arasında yayılması haqda dolğun məlumat azdır. Belə ki, bu infeksiyalar adətən gizli keçir, manifest formaları az olur, xroniki formaları üstünlük təşkil edir. Xəstələr həkimə vaxtında müraciət etmirlər ki, bu infeksiyalar çox vaxt ayrı-ayrılıqda öyrənilir, qarışıq infeksiyalar nəzərə alınmır [1,3,5,9].

Son illər ölkələrarası iqtisadi, mədəni əlaqələrin artması, turizmin inkişafı miqrasiya proseslərini artırmış, insanların bir-biri ilə təmasları çoxalmışdır

ki, bu da digər infeksiyalar kimi opportunist infeksiyaların yayılmasına şərait yaradır.

Bütün bunları nəzərə alaraq 2005-2011-ci illərdə Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutuna və "Ömür" klinikasına müraciət edən və opportunistik infeksiyalara görə müayinə olunan 31500 qadının retrospektiv və prospektiv müayinələrinin nəticələri tərəfimizdən araşdırılmışdır. Müayinə edilən qadınların yaşı 18-41 arasında olmuşdur. Onların 15467-ni hamilə qadınlar təşkil etmişdir.

Müayinə edilən qadınların 53,7 ±0,3%-də opportunistik infeksiyalar aşkar edilmişdir. Onlardan 16,4±0,2%-də urogenital xlamidioz, 12,8±0,2%-də ureaplazmoz, 27,6±0,3%-də toksoplazmoz və 37,9±0,3%-də isə sitomeqalovirusa görə seropozitivlik aşkar edilmişdir.

Opportunistik infeksiyaların 51,2±0,4%-ni qarışıq infeksiyalar, 48,8±0,4%-ni isə mono-infeksiyalar təşkil edir. Monoinfeksiyaların 41,7±0,5%-ni sitomeqaloviruslar, 23,7±0,5%-ni genital herpes, 10,2±0.3%-ni xlamidioz, 7,2±0,3%-ni ureaplazmoz, 17,2±0,4%-ni toksoplazmoz təşkil etmişdir.

Bu infeksiyalar hamilə qadınların 43,5±0,4%-də, hamiləliyi olmayan qadınların 63,5±0,4%-də aşkar edilmişdir.

Opportunist infeksiyalar normal hamiləliyi olan qadınların 37,6±0,5%-də, hamiləlik patologiyaları olanların isə 58,4±0,7%-də aşkar edilmişdir.

Bu infeksiyalar endometriti və doğuşdan sonrakı ağırlaşmaları olan qadınların 53,7 ±5,7%-də, yumurtalıq polikistozu olanların 46,1±1,4%-də, dölün hipotrofiyası və bətndaxili hipoksiyası olanların 59,4±1,0%-də, dölün bətndaxili inkişaf ləngimasi olan qadınların isə 62,1±2,0%-də aşkar edilmişdir.

Beləliklə, aparılan tədqiqatların nəticələri göstərir ki, hazırda qadınlar arasında opportunist infeksiyalar geniş yayılmışdır. Bu infeksiyaların hamiləlik patologiyası olan qadınlar arasında daha çox rast gəlməsi onların bu patologiyaların yaranmasında rolunu göstərir. Ona görə də, opportunistik infeksiyaların, xüsusən də onların qarışıq formalarının orqanizmin immun sistemində yaratdığı dəyişikliklər və hamiləlik patologiyalarındakı rolları daha dərin tədqiq edilməlidir. Tövsiyyə olunur ki, pregravidar hazırlıq zamanı və göstəriş olarsa hamiləlik zamanı qadınlar digər müayinələrlə yanaşı opportunistik infeksiyalara görə də yoxlanmalıdır.

РЕЗЮМЕ

Распространение оппортунистических инфекций среди женщин и их роль в патологии беременности

М.Х. Мусаева
Научно-исследовательский институт акушерства и гинекологии

Ключевые слова: *оппортунистические инфекции, беременные женщины, патологии беременности*

Результаты проведенных исследований показывают, что и в настоящее время среди беременных женщин оппортунистические инфекции широко распространены. Высокий уровень зараженности беременных женщин этими инфекциями свидетельствует о роли оппортунистических инфекций в патологии беременности. Поэтому роль оппортунистических инфекций, особенно их смешанных форм, в иммуносупрессии иммунной системы и вызванные ими патологии

SUMMARY

The spread of opportunistic infections among women and their role in the pregnancy pathologies

M.Kh. Musayeva
Scientific Research Institute of Obstetrics and Gynecology

Keywords: *opportunistic infections, pregnant women, pregnancy pathologies*

The results of the conducted studies show that opportunistic infections are widespread among women. The fact that these infections are more common among women with pregnancy pathology indicates their role in the development of these pathologies. Accordingly, the role of opportunistic infections, especially their mixed forms, in changes in the women immune system and in pregnancy pathologies should be studied more deeply. Before and during pregnancy, women should be screened

человека требует более углубленного изучения. Рекомендуется, чтобы женщины проходили скрининг на оппортунистические инфекции во время подготовки к беременности и, при наличии показаний, во время беременности наряду с другими обследованиями. На основе проведенных исследований для изучения клиники, диагностики и лечение моно- и микст- форм оппортунистических инфекций разработать более эффективные мероприятия для борьбы и профилактики этих инфекций.

for opportunistic infections, among with other examinations. The clinic, diagnosis, and treatment of mono and mixed infections should be comparatively studied and effective combat and prevention measures should be developed and prepared based on them.

ƏDƏBİYYAT

1. Cəfərova S.R. Hamilə qadınlarda urogenital xlamidioz və ureaplazmozun müştərək rastgəlmə formalarının klinik – epidemioloji xüsusiyyətləri və perinatal nəticələri // Tibb üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı, Bakı, 2017, 21s.
2. Musayeva M.X. Toksoplamozun epidemioloji və immunoloji aspektləri və onun perinatal dövrə təsiri// Tibb üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı, Bakı, 2018, 21 s.
3. Безнощенко Г.Б. Беременность и оппортунистические инфекции (Вопросы диагностики и врачебной тактики) – Омск: издательство ОмГМА, 2002, 112 с.
4. Васильев Ф.Н., Каграманова Ж.А., Малиновская В.В., Парфенов В.В.,Выжлова Е.Н., Серова Е.В. Терапия рецедивирующей госпитальной формы герпес вирусной инфекции у женщин. // Лечащий врач.-№5, 2012, с. 68-70
5. Долгих О.И. Актуальные оппортунистические инфекции(вопросы эпидемиологии, иммунологии, лабораторной диагностики и профилактики) // Диссертация доктора медицинских наук.-ОМСК, 2000,258 с.
6. Калитин А.В. Эпидемиологические и иммунологические аспекты токсоплазмоза в группах высокого риска // Автореферат кандидата медицинских наук, Омск,2002.
7. Кулаков В.И. Инфекции, передаваемые половым путем: проблема настоящего и будущего// Акушерство и Гинекология , 2003,№6,с.3-6
8. Никонов А.П., Чилова Р.А., Остроумова М.В., Стецюк О.У., Андреева И.В. Актуальные проблемы лечения хламидийной инфекции у беременных женщин// Лечащий врач, 2010, №3, с.42-45.
9. Зайкова Э.Ф. и др. Опорные клинические критерии первичной диагностики оппортунистических инфекций// Оппортунистические инфекции: проблемы и перспективы / под ред. Ю.В. Рерькина, О.А.Мирошнина, Омск: издательство ОмГМА, 2002,с.10-13.
10. Guidelines for management of sexually transmitted infections, World Health Organization, 2003.
11. Infections in Obstetrics and Ginecology (Textbook and Atlas), 2007, p.255б Stuttgart, New-York.
12. Peretti S., Shaw A., Blanchard Y., Bohm R., Morrow G., Lifson I.D., Gettie A., Pope M. Immunomodulatory effects of HSV 2 infections on immature macaque dendric cells modify innate and ablative responsis//Blood, 2005, Vol.106 №4, p.1305-1313.

Qeydlər / Заметки / Notes

Qeydlər / Заметки / Notes

Qeydlər / Заметки / Notes